*Azərbaycan Respublikası Hesablama Palatası Kollegiyasının 2008-ci il 13 sentyabr tarixli 35 nömrəli Qərarı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti barədə məlumatların hazırlanması və Kütləvi informasiya vasitələrində yayılması

# QAYDALARI

## I.Ümumi müddəalar

1. Bu Qaydalar "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa, Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsinə, Azərbaycan Respublikasının digər aidiyyatı qanunvericilik aktlarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikası Hesablama Palatasının (bundan sonra Palat) fəaliyyəti barədə müntəzəm olaraq Kütləvi informasiya vasitələrinə (bundan sonra KİV) və ictimaiyyətə məlumatların hazırlanması və verilməsi məsələlərini tənzimləyir.

2. Bu Qaydaların məqsədi Hesablama Palatasının fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin edilməsindən ibarətdir.

## II. Hesablama Palatasının fəaliyyəti barədə rəsmi məlumatların verilməsi prinsipləri

3.Palatanın fəaliyyəti barədə KİV-ə rəsmi məlumatlar verilərkən aşağıdakı prinsiplərə əməl olunmalıdır:

- nəzarət tədbirləri barədə məlumatlar həmin tədbirlər başa çatdıqdan, nəticələri Hesablama Palatasının Kollegiyasında müzakirə olunduqdan və nəzarət tədbirlərinin nəticələri üzrə materiallar Azərbaycan Respublikasının Milli Məclisinə göndərildikdən sonra KİV-ə təqdim olunur;

- məlumatların məzmunu, həcmi, forması və rəsmi qaydada KİV-ə təqdim olunması müddəti Palatanın Kollegiyası tərəfindən müəyyən olunur. Hər bir nəzarət tədbiri üzrə ayrıca Kollegiya qərarı qəbul olunur;

- Palatanın fəbaliyyəti haqqında illik hesabatlar Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir və "Azərbaycan Respublikasının Milli Məclisinin Məlumatı"nda dərc olunur;

- məlumatlar yalnız Palata Sədrinin, Sədr müavinin və ya Palata üzvlərindən birinin imzası ilə KİV-ə verilir;

- nəzarət tədbirlərinin nəticələri üzrə məlumatların KİV-ə verildikdən və rəsmi dövlət qəzetlərində (o cümlədən elektron KİV-də) dərc olunduqdan sonra Kollegiya üzvləri və Aparatın digər vəzifəli şəxslərin və onun nəticələri barədə yalnız öz adlarından müəyyən açıqlamalar verə bilərlər;

- məlumatlar verilərkən dövlət sirri və ya qanunla mühafizə edilən digər sirlərin qorunması haqqında Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin tələblərinə riayət olunmalıdır;

- Palatanın Kollegiya üzvləri və əməkdaşları tərəfindən Palatanın fəaliyyəti barədə məlumatlardan siyasi məqsədlər üçün istifadə edilməsi qadağandır.

## III. Hesablama Palatasının fəaliyyətində aşkarlığın təmin olunması formaları

4. Palatanın fəaliyyətində aşkarlığ aşağıdakı formalarda təmin olunur:

- Azərbaycan Respublikasının Milli Məclisinə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə, dövlət büdcəsinin icrası barədə illik hesabatlara və müvafiq qanun layihələrinə rəylərin, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin, onun daimi komissiyalarının sorğu və təklifləri üzrə rəy və hesabatların təqdim olunması;

- həyata keçirilmiş nəzarət tədbirlərinin nəticələri üzrə məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə, məktub və təqdimatların isə müvafiq mərkəzi və yerli hakimiyyəti orqanlarına, nəzarət tədbirinin obyekti olan qurumlara göndərilməsi;

- zəruri hallarda nəzarət tədbirlərinin nəticələri üzrə materialların hüquq-mühafizə orqanlarına göndərilməsi;

- Palatanın fəaliyyəti haqqında illik hesabatın dərc olunması;

- nəzarət tədbirləri və digər fəaliyyət sahələri barədə məlumatların Palatanın WEB-saytında və ixtisaslaşdırılmış yurnallarda dərc olunması, mətbuat konfransları və brifinqlərin keçirilməsi yolu ilə yayılması, xüsusi press-relizlərin və bülletenlərin çap olunması.

5. Palatanın rüblük, yarımillik və illik fəaliyyətinin nəticələri, habelə Palatanın işi ilə bağlı başa çatmış mühüm tədbirlər barədə mətbuat konfransları keçirilə bilər. Kollegiyanın tapşırığın əsasən mətbuat konfransları Palatanın rəhbərliyi və ya onun müəyyən etdiyi Palatanın məsul şəxsi tərəfindən aparılır. Mətbuat konfransınüda Aparatın aidiyyatı əməkdaşlarının iştirakı müvafiq qaydada Palatanın rəhbərliyi tərəfindən müəyyən olunur.

6. Palata tərəfindən onun fəaliyyəti ilə bağlı olan hər hansı mühüm problemə həsr edilmiş brifinqlər keçirilir. Brifinqlərin keçirilməsi bu Qaydaların 5-ci bəndinə uyğun olaraq təşkil edilir.

7. Palatanın fəaliyyətinin müxtəlif məsələlərinə həsr edilmiş mətbuat xidmətinin məlumatları və ya pres-relizlər hazırlanır, dərc olunmaq üçün KİV-ə verilir və ya Palatanın WEB-saytında yerləşdirilir.

8. Palatanın başa çatmış nəzarət tədbirlərinin nəticələri, espert rəyləri, normativ-metodiki sənədlər, analitik təhlil materialları, habelə Palatanın rəhbərliyi, üzvləri və əməkdaşlarının dövlət maliyyə nəzarəti, büdcə - vergi siyasəti və digər mövzulara həsr edilmiş fikir və mövqeləri, Palatanın fəaliyyətini əks etdirən məlumatlar Kolegiyanın qərarı ilə bülleten şəklində çap edilə bilər.

9. Palatanın fəaliyyət barədə materiallar Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (İNTOSAİ) və onun regional işçi qruplarının (EVROSAİ, ASOSAİ), habelə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Ali Audit Qurumları Birliyinin (ECOSAİ) məlumat bülletenlərində dərc edilir.

10. Mətbuat katibinin məlumatları, press-relizlər, mətbuat krnfransı və brifinqlər üçün materiallar bilavasitə müvafiq istiqamətlər üzrə Aparatın mətbuat katibi ilə struktur bölmələri tərəfindən əlaqəli şəkildə hazırlanır, Palatada kargüzarlığın aparılması qaydalarına uyğun olaraq rəsmiləşdirilir və Palatanın Sədri ilə razılaşdırılmaqlı Aparatın mətbuat katibi tərəfindən KİV-ə ötürülür. KİV-ə verilmiş bütün materialların (o cümlədən elektron vasitələrlə ötürülən) bir nüsxəsi mətbuat katibində saxlanılır.

11. Nəzarət tədbirlərinin nəticələri üzrə tərtib olunan səndlərlə bağlı müxtəlif KİV-lərdən daxil olmuş sorğulara cavabların məzmunu və forması Palatanın Kollegiyası tərəfindən müəyyən olunur.

## IV. Hesablama Palatasının fəaliyyəti barədə məlumtaların yayılması üzrə məsuliyyət

12. Palata haqqında KİV-də (o cümlədən elektron KİV-də) çıxan materiallar mətbuat katibində toplanır, həftəlik, aylıq və ya rüblük xülasələr tərtib edilir, təhlil nəticəsində böhtan və ciddi təhriflər aşkar edildikdə Palata rəhbərliyinin tapşırığına əsasən müvafiq qaydada təkziblər hazırlanır və həmin KİV-ə göndərilir. Qanunvericilikdə nəzərdə tutulmuş müddətdə KİV tərəfindən təkzib çap edilmədikdə Hesablama Palatası tərəfindən müvafiq qaydada məhkəməyə müraciət edilir.

13. KİV-ə verilən məlumatların dürüstlüyü və keyfiyyətinə görə həmin məlumatları hazırlayan və imzalayan struktur bölmələrin rəhbərləri və mətbuat katibi məsuliyyət daşıyırlar.